# Rədif qədim – hava təzə

*(Gəraylı üstündə qımıltılar)*



Vaqif Bəhmənli

## MÜKƏMMƏL

Hamı istəyir belə;
qarışmasın su lilə...
Özünü alır ələ
hərə bir üsul ilə.

Daş yarır daşa gələn,
çeynənir dişə gələn...
Dünyada başa gələn
nə var ki, asan ilə!?

Artır ləpə, ötür su;
dalğa tay-tuşudur su.
Qayanı üşüdür su -
bürüyür yosun ilə.

Odlara atır canı
verir qəlb imtahanı,
aşiq yıxır hicranı -
qovuşur vüsal ilə.

İbadətdi adəti -
hanı bir an möhləti:
Mömin qovur qəfləti
üzündən qüsul ilə.

Mən piyada, sən atda -
üst qat vardır alt qatda,
zərrə yox kainatda
yaransın qüsur ilə.

*2016*

## ŞƏRTLƏŞMƏ

Təhnədə un varımdısa,
səfərə ehtiyac yoxdu.
Şalvar beldə tarımdısa,
kəmərə ehtiyac yoxdu.

Sevda can üzrə küncüt
yeri ürəyin küncü,
Cüt can birsə,
üçüncü
nəfərə ehtiyac yoxdu.

Nadan küləklər əsir -
hara belə tələsir?
Başımı müslüm kəsir;
kafərə ehtiyac yoxdu.

Dərd bala...
bürü şala!
Əlacı göydən dilə;
Tanrı əl çəksə telə,
tumara ehtiyac yoxdu.

Uduşuna çatdınsa -
batdın demək, yatdınsa!
Şuma toxum atdınsa
qumara ehtiyac yoxdu.

Azca sızılda neydə -
miskinlik var gileydə...
Qəlbin uçursa göydə
qaçara ehtiyac yoxdu,
uçara ehtiyac yoxdu,
çapara ehtiyac yoxdu...

*2015*

## HANI

Kiçiyi bəy, böyüyü xan -
Vardır şahanə keçmişim;
Amma buna sahib çıxan
oğlum, qızım, qarım, kişim...
söz kəsəsi, soyum hanı?

Yaş tökürəm zülüm-zülüm,
Göz bərəldir çat... qapıdan!
Qulpu qırıq səhəng gülür -
su dartıram yad qapıdan;
Kor quyuda suyum hanı?

Enir göydən şabaş kimi...
nəyə gərək sübh azanı?
Qalaqlanır dərd; aş kimi,
pıqqıldayır su qazanı,
əndərməyə düyüm hanı?

Eyvanımda əcəl gəzir
içim hazır dəli yeri!
Cüt bükülən dizim əsir...
Ağlamalı ölü yerim,
oynamalı toyum hanı?

Baxıram, boşdu xan taxtı -
güc yoxdu ora çıxmağa?...
Can qüruba axan vaxtı
baş hanı yerə soxmağa,
ucalmağa boyum hanı?

*2017*

## ÖMÜR YOLU

Ağıl kəsmir, anadan
yavaş-yavaş olanda,
Yekəlir cüt gözü qan,
tək gözü çaş olan da.

Zəhmət -
təndi söyüdə;
dənsiz qalır üyüdən,
İştah küsür düyüdən
süfrədə aş olanda.

Fələk gəmini çalxar,
Yelkən
nəm çəkib salxar...
Ufultu ərşə qalxar
qəmə qardaş olanda.

Nə ana var, nə ata,
tər içində yer-yataq..
əcəl çatar imdada
yastığın yaş olanda.

Qum ömrü yuyar ləpə;
Adam sızılar dibə.
Üstündə qalxar təpə
Başına daş olanda...

*2017*

## CAN GƏRAYLISI

Gah ağsaqqal bir qocayam,
gah da nadan nəvə kimi;
dörd divardan tutum gərək
çatım deyə evə kimi...

Doludu can dağarcığım,
Ürək -
sevən sığırçınım...
Qanımda qan qabarcığı
nüvə gəzən nüvə kimi.

Beca söz xalqı doldurub
Fırladır çarxı doldurub...
Axıram, parçı doldurub
köpüklənən pivə kimi.

Boşalır, dolur gedirəm -
ləpirim qalır, gedirəm!
İlan yol çalır - gedirəm;
dözümlüyəm dəvə kimi.

Səbr hanı səbrim həddə -
Hirs qoşundu, sinəm səddi!
Su qaynar yüz hərarətdə,
Mənsə, qırxda...
civə kimi.

Yuxu sözü mənə çatmır,
Yuxusuz həyat həyatmı?
Diz yorulur, fikir yatmır
Axşamdan taa...
sübhə kimi.

Dövran gedər tutsan necə
Vaqifə nə gündüz-gecə?
Yeyirəm ömrümü beləcə
Xalçayeyən güvə kimi.

*2018*

## AYRI

Oğlum eylədi isbat
can olur candan ayrı.
Hökmünü verdi həyat -
qan axdı qandan ayrı.

Firqət fələyin işi,
Həsrət insan vərdişi...
Dolaşır qadın, kişi
yaranan gündən ayrı.
Qəbr qutu, can nəzir;
Hamı haqqa tələsir.
Müsəlman Allah gəzir
imandan, dindən ayrı.

Birlik hara, biz hara? -
Zənzirbəndik şahlara!
Uzanar günahlara
boğaz -
ipindən ayrı.

Qat-qarışdı dərə, dam,
Xeyir adam, şər adam...
Düşüb dilənər adam
düşsə cibindən ayrı.

Sünbül zəmidə çin-çin -
Oraq biçər, ya da çin.
Budaq haçadı,
çünki
qalxmış dibindən ayrı!

*2018*

Davamı səhifə 17-də

(Əvvəli səhifə 16-da)

## GÖZLƏNTİ

Nə qədər çəkib köçünü
Qohum təşrif buyuracaq?
Hamı tərk etsin içimi
Şahım təşrif buyuracaq!

Arzu, həvəs, canımdan çıx,
Şeytan, iblis, canımdan çıx,
Ey son nəfəs, canımdan çıx,
ahum təşrif buyuracaq!

Vaqif ayrı bəşər oldu,
qazanlarda bişər oldu,
Varım itkin düşər oldu,
yoxum təşrif buyuracaq!

Gen qəbrimi yarım qazar,
Adımı dik daşa yazar,
Ağzını aç, gözəl məzar,
ruhun təşrif buyuracaq!

2015

## EŞQ GƏRAYLISI

Yerə endim qanadında
Göyüzündə uçan eşqin.
Övladı var mən adında
atam-anam qucan eşqin.

Qəfəs içrə ev dustağı
saxlamadım ağzıbağlı;
onçun oldu min budaqlı
kökü dərin, uca eşqim.

Gözəl gördüm, istiləndim,
odu vurdu, xəstələndim,
"Yox" söylədi,
tüstüləndi
bəyaz saçlı baca eşqim.

Günə bir qurban eylədi,
qəmi yanbayan eylədi.
Çox ürəyi qan eylədi -
döndü zalım taca eşqim.

Çəkdim heçin cəfasını,
Heç görmədim səfasını...
Hanı səndən vəfalısı
Qoca qarım, qoca eşqim?!

2016

## DƏRVİŞ

Min acını yeyər həssas
bir şirinin xatirinə,
Qara daşı oyar qəvvas
gövhərinin xatirinə.

Dərviş tanınar nəyindən? -
Tutar haqqın ətəyindən,
qorxmaz cəllad kötüyündən
bir dərinin xatirinə...

dərdli başa tac qoyar o,
canı yalavac qoyar o,
tox bəxtini ac qoyar o
kədərinin xatirinə.

Vətən candı, səfər köynək,
Əl boşluqda gəzər ətək,
Qürbət ölüm olsun, neynək
səfərinin xatirinə.

Bir səcdədi hər əyimi;
Söz dikəldər dirəyini;
qələm deşər ürəyini
dəftərinin xatirinə.

Zəncirlənmiş dəli olar,
ölsə, üzüsulu ölər...
Min tanrının qulu olar
dilbərinin xatirinə.

2015

## TUT

Sənə dərin sözüm var,
qulağını bəri tut.
Duru göldə sazan var,
əlini at, diri tut.

Qəltan eylə qanları,
mələyi qov, pəri tut.
Qaçağan ceyranları
hünərin var, yeri, tut.

Çox da ki, qalxıb dizə
yatarını geri tut,
otluq quldu dəryaza -
əsas odu, vəri tut.

Ötəri söhbətdi tost,
haqqı dil əzbəri tut.
Dünya qonaqlıqdı, dost
tutsan bir nəfəri tut.

Zillət dəvədi canda -
demirəm ki, nəri tut.
Aləm kefə cumanda
sən yüyür kədəri tut.

Cüt dolur, tək azalır -
göz yaşını iri tut.
Dəriyə ləkə salır
gözdən düşən iri tut.

2015

## ÖZÜMƏ QALSA

Şirə verib bitənə
Susaram kötük kimi.
Paylaram yol ötənə
balımı pətək kimi.

Özümə qalsa çinar,
gavalı kimi susaram.
Cabbar oxuyub uçunar -
qavalı kimi susaram.

Nə sirdi yaxşı yuxu;
mələyimə deyərəm.
Pis sözümü axıcı
küləyimə deyərəm.

Özümə qalsa burub
hörərəm birçəyimi.
Dilimə tikiş vurub
udaram dilçəyimi.

Di gəl açılan sabah
aralığı qarışdırır.
Allah dindirir, vallah,
məni Allah danışdırır...

2015

## ADİ QORXU

Deşərsən qalın divar,
bürcümü oxlayarsan.
Səni sevməyə nə var -
Qorxuram, "yox" deyərsən!

Dilində şəkər, zəhər -
Allaha oxşayırsan.
Can dartıram birtəhər,
ölərəm, yox sayarsan...

Cinlər şivən qoparar,
kimsə qapımı döyməz.
Mənim bircə qorxum var -
əlim əlinə dəyməz...

2015

## ŞÜKRAN

Böyüdü oğlum -
Toğludu oğlu,
varımdı oğlu,
yoxumdu oğlu!

Böyüdü qızım
Quzumdu qızı;
Qızıl qızımın
Özüdü qızı!

Dünyanın payı
nəyimə lazım?
Qızıl babayam -
Allahdan razı...

2016

## RƏHİLƏYƏ

Olur,
hərdən həddimi aşıram -
həddimə yenib...
ucalırsan!
Mən sənə görə
cavanlaşıram,
Sən, mənə görə
qocalırsan!

Yeddi yana yeriyir Xəyyamlar,
Şahzadə olur Gülgünlər...
Ucala-ucala keçir əyyamlar,
Qocala-qocala keçir günlər...

2015

## ZARAFAT

*Getmə gözümdən, gedərəm özümdən.*
*El deyimi.*

Eşitdim gəzməkdəsən -
bulvar üstümə gəldi.
Qu keçən, bəzgək keçən
yollar üstümə gəldi.

Eyvan asdı özünü,
qapı çırpdı dizinə,
güzgü yumdu gözünü -
divar üstümə gəldi.

Ütü, dəsmal, "urbaşka",
qırağı güllü "çaşka",
dünyada sənnən başqa
nə var, üstümə gəldi.

Haray çəkdim hirsimdən
Xəbər tutmadın ki, sən...
Kül oldum, cin, əcinnə
uçub tüstümə gəldi.

2015

## NƏ VAXT DİNCƏLƏRƏM

Əvvəlim heç...
sonum nə?
biləndə dincələrəm,
qəm qoşunu üstümə
gələndə dincələrəm.

Kim deyir ki, haramsan?
Halalsan, mən varamsa...
Bulud tək ağlaram, sən
güləndə dincələrəm.

Afiyət olsun de ki,
çoxu olsun səninki...
ömrümü nartək iki
böləndə dincələrəm.

Canım çıxar göz qırpsan,
sən üzülən son sapsan...
üzümə qapı çırpsan
dalanda dincələrəm.

Rəhm et vida anında! -
mərhəmət var qanında...
bir gecəlik yanında
qalanda dincələrəm.

Sən sonuncu yolumsan,
həm daşlıqdı, həm qumsal!
Ayıb olar yorulsam...
öləndə dincələrəm.

2015

## YAZI TƏRZİ

Başına kəmənd atıb
ram edirəm zamanı...
Kişnəyir ilham atım,
nal tutur dörd məkanı -
mismarı
canda yazıram!

Qələmlə
xəyanətin
çıxardıram gözünü,
Ətdən kəsilir ətim -
qara bəxtin sözünü
qırmızı qanda yazıram!

Düşürəm zəmin qata,
enirəm zirzəmiyə...
Ruzuya bata-bata
uzanıb bir zəmiyə
sünbüldə,
dəndə yazıram

Vergi belə verilib
Ya qoyma qol,
ya qoy qol...
Gündə yüz yol dirilib
ölürəm gündə yüz yol -
onçun da
gündə yazıram.

2017